Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Ermənistanda müxalifət liderinin kürəkəni həbs edilib

indicə




Arqam Abramyan

Ermənistanda bir qətl işi üzrə keçmiş deputat və Artaşat şəhərinin keçmiş meri **Arqam Abramyan** həbs edilib. AzadlıqRadiosunun erməni xidməti bu xəbəri İstintaq Komitəsinə istinadla yayıb.

Avqustun 8-də Ermənistan İstintaq Komitəsi Abramyanın malikanəsində saxlanılmasının videosunu yayıb.




İstintaqın versiyasına görə, Abramyan "Yevangelist Etiqadlı Xristianlar" dini təşkilatının pastorunun qətlini sifariş edib. Siyasətçinin xanımının həmin şəxslə şəxsi münasibətlərinin olduğundan şübhələndiyi iddia olunur. Qadının pastora böyük məbləğdə pul verdiyi bildirilir.

İstintaq Komitəsi bildirir ki, Abramyan qətli törətməyi ondan maliyyə və şəxsi baxımdan asılı mühafizəçisinə tapşırıb. Pastor 2023-cü il aprelin 30-da Yerevanda Myasnikyan prospektində bir binanın girişində güllələnib.

Abramyan sifarişli qətlə təhrikdə, qətli törətdiyi ehtimal olunan şəxs isə qətldə və qanunsuz silah dövriyyəsində ittiham olunur.

Abramyan Ermənistanın keçmiş baş naziri Ovik Abramyanın oğlu, biznesmen və "Çiçəklənən Ermənistan" Partiyasının lideri **Qagik Tsarukyan**ın kürəkənidir.

Tsarukyan külli miqdarda dələduzluq və çirkli pulların yuyulması ittihamları ilə iyuldan həbsdədir. O, ittihamları rədd edir, onları siyasi motivli və saxtalaşdırılmış adlandırır. Tsarukyanın tərəfdarlarına görə, hüquq-mühafizə orqanları baş nazir Nikol Paşinyanın göstərişi ilə hərəkət edir.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur